UOT: 339.74
DOI:10.30546/3006-0346.2024.5.83.050

# MİLLİ İQTİSADİYYAT PERSPEKTİVİNİN ƏSAS AMİLLƏRİ VƏ BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN YÖNƏLDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

**SEVİL ABDULLAYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*
*E-mail: sevilabdullayeva@live.com*

Məlumdur ki, eyni nəzəri məzmuna malik iqtisadi siyasətlərin verdiyi müxtəlif nəticələr hər bir ölkənin tarixi-mədəni xüsusiyyətlərindən, o cümlədən ənənələrindən asılıdır. Bu xüsusiyyətlər məşhur iqtisadçı Anqus Medisson tərəfindən mükəmməl şəkildə izah olunur. O, çoxsaylı ölkələrin yüzilliklər ərzində keçdikləri inkişaf yollarını öyrənərkən belə qənaətə gəlir ki, məhz iqtisadi institutlar inkişafın dinamikasını və trayektoriyasını təyin edən fundamental amildir.

Konstitusiya və qanunun aliliyi iqtisadi inkişafın dayanıqlılığını dəstəkləyir. İnstitutların zəif olduğu ölkələr iqtisadi artım tempinin aşağı və əhəmiyyətli volatil olması kimi xüsusiyyətlərə malikdir. Ümumilikdə, bazar iqtisadiyyatının effektiv fəaliyyəti üçün aşağıdakı institutların effektiv fəaliyyəti vacibdir:

**Sxem1. İnstitutların effektiv fəaliyyəti, müəllif tərəfindən tərtib olunub.**




D.Rodrik formal institutları 4 qrupa bölür:

**Sxem 2. Formal institutlar qrupu, müəllif tərəfindən tərtib olunub.**




1.*Bazarların formalaşmasını və sağlam fəaliyyətini təmin edən institutlar. Effektiv siyasi güc, müstəqil məhkəmə sistemi və s. belə institutlara aiddir; 2.Bazarların uğursuzluqlarını tənzimləyən institutlar. Məsələn, telekommunikasiya, nəqliyyat, su və meşə resurslarını, maliyyə xidmətlərini tənzimləyən agentliklər buraya daxildir; 3.Makroiqtisadi və maliyyə sabitliyini təmin edən institutlar. Mərkəzi banklar və fiskal orqanlar aşağı inflyasiya və büdcə dayanıqlığı vasitəsilə bazarın sabitləşməsini təmin edirlər; 4.Bazarı legitimləşdirən institutlar.* Bu institutlar bazar subyektlərini neqativ şoklardan və mənfi bazar effektlərindən qorumağa imkan verir. Belə institutlara pensiya sistemləri, işsizlikdən müdafiə və digər sosial fondlar aiddir [6, s.15].

Qeyd edək ki, fiziki və insan kapitalı kimi, maliyyə kapitalının əksinə olaraq sosial kapitalın dəstəyə ehtiyacı var. Sosial əlaqələr mütəmadi yenilənməlidir ki, effektivliyi itirilməsin. Lakin bu yenilənmə fiziki kapitaldakı amortizasiya formasında deyil, insan kapitalındakı biliyin daim artırılmasına oxşar meyarlarla həyata keçirilməlidir. Sosial kapital ictimai məhsuldur, kimlərsə ayrılıqda ondan faydalana bilməz. İqtisadi artım ilə inam, vətəndaş birliyi arasındakı münasibətlər Knack və Keefer tərəfindən əsaslandırılmışdır ki, inam və vətəndaş əməkdaşlığının yüksək olduğu cəmiyyətlərdə gəlir bərabərliyi, qanunların aliliyi təmin olunur [1, s.1251-1288].

İnstitutların ölçülməsi və empirik müşahidələr makroiqtisadi dəyişənlərdən fərqli olaraq, institutların inkişaf səviyyəsinin ölçülməsi üzrə universal metodologiya mövcud deyildir. Lakin: Dünya Bankının apardığı araşdırmalarda institusional inkişafın 5 göstərici üzrə qiymətləndirilməsinə rast gəlinir:

**Sxem 3. İnstitusional inkişafın qiymətləndirilməsi, müəllif tərəfindən tərtib olunub.**



Bu göstəricilər [-2.5-2.5] intervalında dəyişir. Bu interval institusional keyfiyyət baxımından aşağı gəlirli və yüksək gəlirli ölkələr arasında böyük fərqin mövcud olmasını göstərir. Belə ki, qanunun aliliyi göstəricisi ən aşağı göstəriciyə malik olan Əfqanıstanda (-2.01) adambaşına ÜDM-in həcmi analoji göstərici üzrə ən yüksək paya malik olan Norveçdən (1.96) dəfələrlə aşağıdır. Dünya üzrə aparılan tədqiqatlar göstərir ki, qanunun aliliyi indeksinin 1 vahid artımı iqtisadi artımı 0.8% bəndi artırır. [8]




**Şəkil 1. Qanunun aliliyi indeksi, müəllif tərəfindən tərtib olunub.**

Təcrübə göstərir ki, sosial kapitalın yaranması kimi onun dağılıb itməsi də çox uzun zaman tələb edir. İkinci Dünya müharibəsindən sonra Almaniyanın bütün fiziki kapitalının dağılmasına baxmayaraq, müharibədən sonra ilk 15-20 il ərzində yüksək iqtisadi artıma nail olunmasının səbəbi kimi güclü sosial kapital göstərilir. Sosial kapital və iqtisadi artım arasında əlaqə çoxlu sayda empirik tədqiqatlar vasitəsilə araşdırılmışdır. Məsələn, Putnam təsdiq edir ki, Amerikada sosial kapitalın əsas təsirləri işsizliyin azalması, cinayət işlərinin sayının aşağı düşməsi, hökumətin effektivliyi kimi məsələlərdə özünü göstərir. Putnam sosial kapital və iqtisadi artım arasında əlaqəni müsbət qiymətləndirir. [5, s. 65-78]. Xarici təcrübələrə baxdıqda Rusiya Federasiyası, Federal inkişaf strategiyasını, həmçinin Baltik və Uzaq Şərq ölkələrinin 2025-ci ilə qədər sosial-iqtisadı inkişafı layihələrinin mövqeyini, "İşgüzar Rusiya", "İrkutsk vilayətinin sosial-iqtisadi inkişafı" konsepsiyalardan ibarət sosial-iqtisadi inkişafın strateji planlaşdırma sənədlər sistemini hazırlamışdır. Eyni zamanda innovasiya məhsulları texnologiyaları və xidmətləri reyestri yaradılmış və funksiyası müəyyənləşdirilmişdir. Qazaxıstan Respublikası 2030-cu ilədək innovasiyanın inkişafı üzrə konsepsiya qəbul etmişdir.

Azərbaycan başqa sahələrdə olduğu kimi, iqtisadiyyatın formalaşmasında və islahatların davamlılığının təmin olunmasında da uğurlar qazanmağa yönümlü bir ölkədir. Bununla əlaqədar olaraq, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün Strateji yol xəritəsi təsdiq edilmiş, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsini təmin etmək üçün müvafiq İşçi qrupu yaradılmışdır. İşçi qrupu yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələrini hazırlamışdır. Strateji yol xəritəsi iqtisadi inkişaf strategiyasını və tədbirlər planından başqa həm də, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir [2].

Layihələr açıq müzakirəyə verilmiş və yekun sənəd tərtib edilərkən maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların çoxsaylı rəy və təklifləri nəzərə alınmışdır. Xəritənin hazırlanmasında 400 yerli və xarici ekspertlər eləcədə müzakirə və 150 toplantılarda 4000 nəfər iştirakçı qatılmışdır. Strateji xəritə iqtisadiyyatın 11 əsas sektoru üzrə İqtisadi İnkişaf Strategiyası və 2017-2020-ci illər üzrə Fəaliyyət Planını, həmçinin 2025 –ci ilə qədər Vizyon və 2025-ci ildən sonra Hədəflərə təkrar baxılmasını özündə əks etdirir [2]. İşçi qrupuna daxil olan şirkətlərdən biri dünyanın aparıcı qlobal idarəetmə və məsləhətçi şirkəti olan McKinsey & Company-dir. Qeyd etmək istərdim ki, bu şirkət dünyanın aparıcı biznes sahələrində, müxtəlif dövlətlərdə, beynəlxalq qeyri-hökumət təşkilatlarına eləcə də iqtisadi qurumlara müxtəlif sahələrdə məsləhətlərin verilməsini təmin edir. McKinsey & Company şirkətinin müştəriləri sənayenin müxtəlif sahələrindən olub ekstensiv- funksional imkanlardan faydalanaraq öz strategiyalarında tətbiq edə bilirlər. Hazırda bu istiqamətlər iqtisadiyyatın 22 sektor və 12 biznes sahəsini əhatə edir. Bu təcrübəyə dayanan yeni imkanlar, üsullar, həll istiqamətləri və istedadlar deməkdir. Bu şirkətin məsləhətçiləri arasında həkimlər, mühəndislər, biznes menecerlər, sahibkar və alimləri görmək olar. Sənəddə mühüm məqam Milli iqtisadiyyat perspektivi: – Azərbaycan iqtisadiyyatının dərindən və faktlara əsaslanan 360 dərəcəli diaqnostikası və GZİT təhlili, habelə rəqabətqabiliyyətli üstünlüklərin vurğulanmasıdır.

**I Faza: 360 dərəcəli diaqnostika və GZİT təhlili**

Burada məqsəd İqtisadi baza xəttinin və inkişaf ssenarisi hədəflərinin yaradılmasıdır. Əsas fəaliyyətlər aşağıdakılar müəyyən edilmişdir:

**Sxem 5. Hökumətin planlarına baxış, müəllif tərəfindən tərtib olunub.**




**II Faza: Prioritet sektorlar üçün strateji baxış və yol xəritəsi (flaqman layihələr və özəlləşdirmə proqramı daxil olmaqla)**

Ölkə iqtisadiyyatına Birbaşa Xarici İnvestisiyaların (BXİ) yönəldilməsinin daha bir həlledici amili rəqabət siyasətidir. Kartel müqavilələri və bazar şərtlərindən sui-istifadə kimi rəqabətə zidd firma davranışlarının qarşısını almağa istiqamətlənmiş qaydalar və tətbiq prosedurlar toplusu olan rəqabət siyasəti bazarlara süni giriş maneələrinin qarşısını alır və bu kontekstdə, yəni ölkəyə xarici kapital qoyuluşlarının axını baxımından mühüm rol oynayır [4, s.77].

Xarici kapital sahiblərinin idarəetmə təcrübəsi, ölkəyə nou-hau gətirmə qabiliyyəti və ümumilikdə iqtisadiyyata səmərə töhfəsi nəzərə alınmaqla, xarici biznes adamlarına özəlləşdirilmə şəklində müəssisələrin verilməsini əks etdirən özəlləşdirmə siyasətinin qüsursuz olması BXİ-nin cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xarici investisiyaların müəyyən növlərinin "üstünlük verdiyi təcrübə" və onların tənzimlənməsi üsulları əsasən aşağıdakı kimi təsnif edilə bilən bir sıra amillərdən asılıdır: 1) ətraf mühit amilləri (ölkənin coğrafi mövqeyi, bütün növ resurslar (ehtiyatlar), elmi-texniki bazalar, istehlak və sənaye malları bazarlarının həcmi, infrastruktur). Bu amillər yalnız uzunmüddətli perspektivdə dəyişdirilə bilər [11]; 2) hökumətlərin marağı, investorların gözləntilərinin idarə edilməsi, inzibati prosedurların effektivliyi, normativ hüquqi baza, maliyyə və vergi güzəştlərinin aid edildiyi daxili amillər [11].

UNCTAD-ın İnvestisiya Trendləri Monitorinqinin 2021-ci il hesabatına görə, dünya BXİ-ı 2020-ci ildə kəskin şəkildə azalaraq 42%-ə enmiş, 2019-cu ildə 1,5 trilyon dollardan təxminən 859 milyard dollara düşmüşdür [10]. Bu aşağı səviyyə sonuncu dəfə 1990-cı illərdə müşahidə olunmuşdu və 2008-2009-cu illərdəki qlobal maliyyə böhranından sonrakı dövrdə 30%-dən daha aşağı minimuma qədər enmişdir [9].

**Şəkil 2.1. BXİ daxilolmaları: qlobal və iqtisadi qruplar üzrə, 2007–2020-ci illər.**




**Mənbə:** *UNCTAD (ilkin hesablamalar), [10]*

Qloballaşma şəraitində bir çox ölkədə, xüsusən də keçid iqtisadiyyata sahib dövlətlərdə özəlləşdirmə proseslərinin tətbiqi vacib məsələlərdən hesab edilir. Özəlləşdirmə proseslərinin əsas məqsədlərindən biri mülkiyyət hüququnun dəyişdirilməsi hesabına iqtisadiyyatda rəqabət qabiliyyətliliyinin təmin olunmasıdır. Bundan irəli gələrək həyata keçirilən özəlləşdirmə tətbiqləri birbaşa xarici sərmayələrin cəlb edilməsi zamanı çox səmərəlidir.

## YEKUN

Azərbaycanın regional qovşaq kimi mövqeyinin gücləndirilməsi və səmərəli infrastruktura yüksək səviyyədə investisiya qoyuluşunun davam etdirilməsi iqtisadi inkişafda pozitiv təsirin artmasına səbəb olacaqdır.

Azərbaycanın şaxələndirilmiş nəqliyyat-logistika imkanları ölkədən ixracın artması üçün zəmin olacaq, bütövlükdə isə biznes xərclərinə qənaət edilməsinə gətirib çıxaracaqdır. Bundan əlavə, təkmilləşdirilmiş nəqliyyat infrastrukturu Azərbaycanın bütün bölgələrinin daha yaxşı inteqrasiyasına şərait yaratmaqla, regionlarda biznesin inkişafına əlavə təkan verəcəkdir. Müasir kommunikasiya imkanlarından istifadə etməklə sürətli genişzolaqlı şəbəkə vasitəsilə elektron xidmətlərin (e–təhsil, e–səhiyyə, e–bankçılıq, e–ticarət və s.) əhatə dairəsi genişləndiriləcəkdir. Xüsusilə, dövlət idarəetməsində rəqəmsallaşdırma biznes üçün şəffaf, hesabatlı, səmərəli və proqnozlaşdırıla bilən perspektivlər yaradacaqdır. Elektron xidmətlərin tətbiq dairəsinin genişləndirilməsi Azərbaycanda biznesin beynəlmiləlləşdirilməsi üçün zəmin olacaqdır. 2025-ci il perspektivində özəl sektorun infrastruktur quruculuğunda daha yaxından iştirakı təmin ediləcək ki, bu da iqtisadi səmərəlili-

yin artmasına pozitiv təsir edir [2].

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli, inklüziv və dayanıqlı inkişafı istiqamətində qarşıya qoyulan əsas tələb, insan kapitalının inkişafına və əmək məhsuldarlığının inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasına nail olmaqdır. [7, s.15-22].

Qlobal iqtisadi mənzərə Avropada zəif və Çində azalan artıma görə dəyişməkdədir. Çin onu əsas iqtisadi regionlarla birləşdirəcək "İpək Yolu" layihəsini həyata keçirməyi planlaşdırır ki, bu marşrutlardan biri də Azərbaycan ərazisindən keçir. Eyni zamanda, Avropa, Rusiya, İran, Hindistan və Mərkəzi Asiyanı birləşdirəcək Şimal–Cənub nəqliyyat dəhlizinin də bir xətti Azərbaycanın ərazisindən keçir. Bu təşəbbüslər ölkəmizin ərazisindən keçən əmtəə və sərnişin dövriyyəsinin həcmini artırmaqla marşrut boyu istehsal və nəqliyyat-logistika xidmətləri üçün imkanlar yaradacaqdır. Dayanıqlı iqtisadi artımı təmin edəcək investisiya qoyuluşlarında maraqlı olan Azərbaycanda qlobal investisiya meyilləri nəzərə alınacaqdır.

Artım əsasən birləşmə və satınalmalar ("M&As") hesabına baş vermişdir. 2015-ci ildə Asiya regionunda inkişaf etməkdə olan ölkələr dünya üzrə birbaşa xarici investisiyaların 1/3-ni cəlb etmişdir. Bu mənada Asiya regionu dünya üzrə ən çox investisiya cəlb edən regiondur. Rusiya və Qazaxıstan başda olmaqla, keçid ölkələrinə birbaşa xarici investisiya axını 2015-ci ildə 54 faiz azalmışdır. Aşağı xammal qiymətləri və regional münaqişələr keçid ölkələrində birbaşa xarici investisiya axınları üçün əsas maneə olmuşdur [3].

Birləşmə və satınalmaları nəzərə almasaq, dünyada birbaşa xarici investisiyaların axını qısamüddətli perspektivdə zəifləyəcəkdir. Çünki qlobal iqtisadiyyat kövrəkdir, qlobal maliyyə bazarları volatildir, tələb aşağıdır və inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım tempi zəifdir. İnvestisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühiti təmin ediləcək və özəl sahibkarlığın inkişafı daha da stimullaşdırılacaq.

**Açar sözlər:** *İqtisadi artım, institutlar, formal institutlar, sosial kapital, strateji yol xəritəsi, birbaşa xarici investisiyalar, maliyyə sabitliyi.*

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Knack S., Keefer P. Does Social Capital Have an Economic Payoff, A Cross-Country Investigation // Quarterly Journal of Economics. 1997. № 112 (4). P. 1251-1288.*

*2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Bakı, 6 dekabr 2016-cı il.*

*3. Анализ стратегии инновационного развития РФ на период до 2020 года. https://www.bibliofond.ru/download.aspx?id=823914.*

*4. Третьякова, Е.В. Прямые иностранные инвестиции: оценка привлечения в Республику Беларусь / Е.В. Трейтьякова // Вестник ГГТУ им. П.О. Сухого2017. №3, с. 77*

*5. Putnam, (1995). Bowling Alone: America's Declining Social Capital. Journal of Democracy, 6(1): 65-78*

*6. Rodrik, (2002). The primacy of institutions. NBER Working Paper. P. 15*

*7. Дадашев, Э.Р.. "Современное развитие институтов, направленных на формирование бизнес-процессов в Азербайджане." Научное обозрение. Экономические науки 2, 2021., с.15-22*

*8. Dünya Bankı- https://data.worldbank.org/*

*9. «Kiçik Ölkələrdə XBİ-ni necə cəlb etmək və ondan faydalanmaq olar: Estoniya və Yamaykadan dərslər", UNCTAD, 2011 http://www.unctad.org/en/docs/diaepcb2010d4_en.pdf*

*10. UNCTAD (ilkin hesablamalar) 2021, https://unctad.org/node/31915*

*11. Ratnayake, R. Regional mecha-nisms for attracting FDI and other long-term private investment towards inclusive and sus-tainable investment in Asia and the Pacific. UNESCAP. Expert Group Meeting on Re-gional Cooperation on Financing for Devel-opment. 15−16 November. 2010. New York. [Electronic resource]. – URL: http://www.un.org/esa/ffd/wp-content/uploads/2014/11/Ratnayake.pdf*



**СЕВИЛЬ АБДУЛЛАЕВА,**
***докторант Азербайджанского Государственного Экономического Университета,***
***E-mail: sevilabdullayeva@live.com***


### РЕЗЮМЕ
### ОСНОВНЫЕ ФАКТОРЫ НАЦИОНАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ПЕРСПЕКТИВЫ И ХАРАКТЕРИСТИКИ НАПРАВЛЕНИЯ ПРЯМЫЕ ИНОСТРАННЫЕ ИНВЕСТИЦИИ

В статье исследованы теоретико-методологические аспекты национальной экономики

и основные факторы. С этой целью раскрыта сущность формирования и развития ПИИ. Анализирована особенность этапах развития в национальной экономике. Рассмотрены важнейшие аспекты и проблемы эффективности в стратегической дорожной карте.

В статье предоставляется информация о социальной экономики и виды национальной экономики, их инфраструктуре, этапах развития, ПИИ и технологических инновациях. Перечисляется преспективы и виды национальной экономики.

**Ключевые слова:** *экономический рост, институты, формальные институты, социальный капитал, стратегическая дорожная карта, ПИИ.*

**SEVIL ABDULLAYEVA,**
***doctoral student of Azerbaijan State Economic University,***
***E-mail: sevilabdullayeva@live.com***

**SUMMARY**

**THE MAIN FACTORS OF THE PERSPECTIVE OF THE NATIONAL ECONOMY AND THE CHARACTERISTICS ORIENTATION OF FOREIGN DIRECT INVESTMENTS**

In this study it was investigated theoretical and methodological aspects of national economy. Also article covers topics such as social capital, national economy & it’s features, growth stages, strategic road map, foreign direct investment aspects etc. The importance of development of innovations which is the one of the main part of the society of information was also pointed out. Article lists types of national economy. The adaptation of our country to the growth tendency of advanced countries were shown in examples with CIS countries being basis.

**Keywords:** *Economic growth, institutions, formal institutions, social capital, strategic road map, FDİ Azerbaijan, financial stability.*